**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATINDA İSLAHAT**
**Ban Ki-munun rəhbərliyi altında**
**Daha firavan dünya üçün gücləndirilmiş Birləşmiş Millətlər Təşkilatı**

*Hər gün, humanitar böhran, insan hüquqları pozuntuları, silahlı münaqişələr, səhiyyə və ətraf mühit problemlərinin də daxil olduğu getdikcə artan yeni təhlükələr ilə qarşılaşırıq və bu buzə daha güclü Birləşmiş Millətlər Təşkilatına olan ehtiyac barədə xatırladırlar. Bəzən Birləşmiş Millətlər Təşkilatından bir çox insanlar üçün daha çox işlər görmək tələb olunur. Mən iyirmi birinci əsrdə möhkəm yerini tutmuş güclənmiş və səmərəli, fəaliyyətdə olan, aydın və məsul Birləşmiş Millətlərə yeni həyat verməkdə və ona olan yenilənmiş inam əldə etməkdə qətiyyətliyəm.* Baş Katib Ban Ki-mun

## İSLAHAT ƏSAS PRİORİTET KİMİ

21-ci əsrdə dünya əhalisi üçün təşkilatın əhəmiyyət və səmərəliliyinin artırılması, Birləşmiş Millətlər Təşkilatının islahatı Üzv Dövlətlər üçün prioritet məsələlərdən biridir. 2005-ci ildə Dünya Sammitində http://www.un.org/summit2005/ dünya liderləri dövrümüzdə baş verən qlobal problemlərə daha effektiv və sürətli cavabı təmin edən daha çox səlahiyyət və qüvvəyə malik olan gücləndirilmiş Birləşmiş Millətlər Təşkilatının yaradılmasına olan öhdəliklərini bir daha təsdiq etdilər. Dünyanın hər bir tərəfində təcili qlobal məsələlər ilə məşğul olduğunu nəzərə alaraq yenilənmiş, canlandmış və daha məsuliyyətli Birləşmiş Millətlər Təşkilatına daha çox ehtiyac var.

2008-ci il yanvar ayında, Baş Katib Ban Ki-mun http://www.un.org/ga/president/62/issues/reform.shtml Üzv Dövlətlərin və onların əhalisinin 21-ci əsrdə qarşılaşdıqları təhlükələri aradan qaldırmaq üçün Birləşmiş Millətlər Təşkilatının inkişafa ehtiyac duyulan sahələrini qeyd etdi. Ətraf mühit, ictimai səhiyyə və insan təhlükəsizliyi sahəsində dünya heç bir sərhəd tanımayan təhlükə və çətinliklərlə üzləşir. Lakin, mahiyyət etibarı ilə bu çətinliklər eyni zamanda, Dövlətlər, digər qurum və vətəndaş cəmiyyəti və özəl sektor kimi iştirakçıların kollektiv fəaliyyəti üçün şəraiti genişləndirir və bununla BMT-nin ümumi məqsədlərə nail olması üçün birgə fəaliyyət mərkəzi olmasına imkan verir. BMT yalnız effektiv və səmərəli olduğu halda insanlar üçün əhəmiyyət kəsb edir. Buna görə də, insanların həyatının daha təhlükəsiz, sağlam, tərəqqili və qorxu və ədalətsizlikdən azad olması üçün real nəticələr əldə etmək prioritet olmalıdır. Sonda, bu sahələrdə inkişaf bütün tərəflərin bir-birinə tam cavabdeh olduğu halda təmin edilə bilər. Təşkilatın gücləndirilməsi Üzv Dövlətlərin, BMT-nin yüksək rütbəli məsul şəxslərinin, işçi heyətinin və digərlərin birgə fəaliyyətini tələb edir. Üzv dövlətlər Nizamnamədə təsis olunmuş orqanların səlahiyyətinə düşən bir sıra məsələləri müzakirə edirlər. Baş Katib Üzv Dövlətlərlə məsləhətləşmə əsasında effektiv, mühüm və cavabdeh BMT-nin bu günün və sabahın təhlükələrinə cavab verə bilməsini təmin etmək üçün getdikcə irəliləyir. Bu cəhdlər əlavə məlumatlarla əlaqə linki aşağıda qeyd edilmişdir.

## İNKİŞAF SAHƏSİNDƏ ÇAĞIRIŞLARA QARŞI İRƏLİLƏMƏK

Baş Katib və Üzv Dövlətlər yoxsulluğa qarşı mübarizə və BMT-nin inkişaf sütununun gücləndirilməsinə olan ehtiyacı vurğuladılar. 2005-ci il Dünya Sammiti, xüsusilə Minilliyin Sammitinin inkişaf barədə fikirlərini formalaşdırılmasında və Minilliyin İnkişaf Məqsədlərinin (MİM http://www.un.org/millenniumgoals/) ayrılmaz tərkib hissəsi olduğu beynəlxalq səviyyədə razılaşdırılmış inkişaf məqsədlərinin daxil olduğu ümumi inkişaf məqsədləri üzrə razılığa gəlməkdə mühüm BMT sammit və konfranslarının mühüm rolunu qeyd etdi. Yekun BMT İnkişaf Gündəliyi hər bir kəs üçün inkişafa nail olmağa vəd verir. BMT-nin inkişaf sütunu bu vədə əməl etmək üçün güclü olmalıdır.

### Dünyanın ən kasıb əhalisinin ehtiyaclarının ödənilməsi

*"Biz Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün təyin edilən müddətin tam ortasındayıq. Güclü və davamlı səylər hazırkı mərhələdə bizim böyük cəhdlərimizin müvəffəqiyyət və uğursuzluq arasında böyük fərq anlamını ala bilər"*

- 2000-ci ildə Üzv Dövlətlər tərəfindən razılaşdırılmış Minilliyin İnkişaf Məqsədləri (MİM) http://www.un.org/millenniumgoals/ci dünyanın əsas inkişaf çətinliklərinə yönələn ən inamlı beynəlxalq öhdəçiliklərdir. Baş Katib bu məqsədlərin həyata keçirilməsinə nail olmaq üçün cəhdlərin ikiqat artırılmasına çağırmışdır.
- Bu məqsədlərə nail olmaq üçün inkişaf qeyri-müntəzəm olaraq qalır. Xüsusilə, az inkişaf etmiş ölkələrin sayının çox olduğu Afrika bu inkişaf yolundan kənarda qalır.
- Bu problemlərin aradan qaldırılması məqsədilə Baş Katib 2007-ci ilin sentyabr ayında Minilliyin İnkişaf Məqsədləri Afrika Təşkilati Komitəsi http://www.un.org/apps/news/story.asp?NewsID=23809&Cr=millennium&Cr1=development formasında yeni əməkdaşlıq vasitəsinin başlanğıcını qoydu. İlk dəfə BMT, Dünya Bankı http://www.worldbank.org/ və Beynəlxalq Valyuta Fondunun http://www.imf.org/external/index.htm rəhbərliyi, Afrika Birliyi, Afrika İnkişaf Bankı, Avropa Komissiyası, İslam İnkişaf Bankı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının İnkişafa Yardım Komitəsinin mövcud öhdəliklər vasitəsi ilə Afrikada xüsusi ehtiyacların araşdırılması və bu qitədə MİM-ə çatma yollarını sürətləndirməsi məqsədilə bir yerə toplaşmışdırlar.
- Təşkilati Komitə səylərini üç əsas sahədə birləşdirmək qərarına gəldi:

i) Səhiyyə, təhsil, infrastruktur, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi, eyni zamanda, statistika sistemində öhdəliklərin yerinə yetirilməsi üçün effektiv mexanizmlərin müəyyənləşdirilmədi
ii) Afrika hökumətlərinə əlavə xəstəxanalar, məktəblər, həmçinin səhiyyə sahəsində işçi qüvvəsi üçün uzunmüddətli planlar yaratmaq üçün proqnozlaşdırmanın inkişafı.
iii) Ölkə səviyyəsində birgə səylər arasında sinerjinin yaradılması və gücləndirilməsi

- Baş Katibin Müavininin sədrlik etdiyi və BMT sisteminin və digər çoxtərəfli təşkilatların  nümayəndələrindən ibarət olan MİM Afrika İşçi Qrupu MİM Afrika Təşkilati Komitəsinə yardımı davam edəcək.
- MİM-lərə nail olmaq üçün təkan əldə etmək məqsədi ilə oxşar cəhdlərin davamı olaraq Baş Katib, Baş Assambleyanın Prezidenti ilə birgə 25 sentyabr 2008-ci il tarixində Yüksək Səviyyəli Tədbir (YST) təşkil edəcək. YST, mövcud inkişaf öhdəlikləri və razılaşdırılmış inkişaf məqsədlərinə nail olunmasına yardım üçün inkişaf əməkdaşlığının səmərəliliyi üzrə 2008-ci il mühüm hadisələr təqviminin əsas hissəsini təşkil edəcək. Bundan əlavə, bu öhdəliklərin həyata keçirilməsi üzrə əməli addımları göstərmək üçün dünya liderlərinin forumu olacaq. Dünya liderlərindən, onların konkret planları və fəaliyyəti barədə məlumat almaqla, YST bu sahədə tədbirlərin həyata keçirilməsini və davam etdirilməsini sürətləndirəcək.
- Baş Assambleyada www.un.org/ga və İqtisadi və Sosial Şuranın (ECOSOC) www.un.org/ecosoc/ funksional komissiyalarında dövlətlər arası proseslər vasitəsi ilə BMT konfranslarının həyata keçirilməsi və onların nəticələrinin izlənilməsi fəaliyyətin əsas istiqaməti kimi davam edəcək. ECOSOC 2008-ci ildə İllik Nazirlər səviyyəsində Müzakirədə (İNM) davamlı inkişafı nəzərdə tutan 7-ci MİM-ə xüsusi diqqət verəcək.
- Buna əlavə olaraq, Katiblik, 62-ci Baş Assambleyanın (A/RES/62/203) qərarının davamı olaraq, Nisbətən Az İnkişaf Etmiş ölkələr üzrə Birləşmiş Millətlər Təşkilatının dördüncü Konfransı üçün üsullar və hazırlıq prosesləri də daxil olmaqla bələdçi plan hazırlayacaq.
- Baş Katib, eyni zamanda, Katibliyi dünyanın ən yoxsul əhalisinin, yerli və qlobal səviyyədə iqtisadi inkişaf nəticəsində kənarlaşdırılan "ən aşağı yoxsulluq səviyyəsində yaşayan milyard"-ın  ehtiyacları üzrə fəaliyyətə daha çox diqqət yetirməyə çağırmışdır.

## Beynəlxalq inkişaf məqsədlərinə çatmaqda liderliyin təmin olunması

*"Dinc və ədalətli dünyanın yaradılması üçün iqtisadi və sosial inkişafa heç bir alternativ yoxdur. BMT sisteminin nəcib missiyasının effektiv yerinə yetirməsi üçün Təşkilatın  inkişaf sütununun möhkəm olması vacibdir "*

MİM-ləri və daha geniş mənada inkişafa nail olmaq üçün BMT-nin aparıcı rol oynamasını təmin etmək üçün təşkilatın səmərəliliyi artırılmalıdır.

- BMT Katibliyinin İqtisadi, sosial və davamlı inkişaf üzrə işlərinə öhdəliyi və Baş Assambleyanın 62/236 nömrəli qətnaməsinə əsasən, Baş Katib Üzv Dövlətlərə BMT Katibliyinin inkişaf fəaliyyəti üzrə mandatın effektiv və səmərəli istifadəsinin daha da yaxşılaşdırmaq üçün təkliflər vermişdir. Baş Katibin təklifinə İqtisadi və Sosial Məsələlər üzrə Departament http://www.un.org/esa/desa/, BMT Ticarət və İnkişaf üzrə Konfransı http://www.unctad.org/, BMT Regional Komissiyaları http://www.un.org/Depts/rcnyo/newsletter/home.htm və İnkişaf üzrə Hesablama http://www.un.org/esa/devaccount/ daxildir. Assambleya həmçinin, Baş Katibdən xahiş etmişdir ki, İnkişaf etməkdə olan, dənizə çıxışı olmayan və kiçik ada dövlətləri üzrə Ali Nümayəndənin ofisinin  http://www.un.org/ohrlls/ mandatını

dəstəkləmək üçün bütün mənbələrdən uyğun resursların səfərbər edilməsini xahiş etmişdir.

- Bu təcrübə hazırda həyata keçirilən BMT-nin inkişaf məqsədləri üzrə liderliyinin gücləndirmə cəhdləri ilə uyğun gəlir:
    - i) Təsisatı və proqram səviyyələrində biliklərin, səmərəlilik, uyğunlaşma və təsirin artırılması
    - ii) Geniş BMT sistemində inkişaf fəaliyyətləri arasında sinerjinin yaradılması
    - iii) BMT-nin üç əsas fəaliyyət sahələri olan inkişaf, sülh və təhlükəsizlik, və insan hüquqları üzrə əlaqənin möhkəmləndirilməsi
    - iv) BMT-nin inkişaf profilini daha da gücləndirmək üçün əsas iştirakçıların və ictimai informasiya fəaliyyətinin daha da möhkəmləndirilməsi. Bu cəhdlər BMT-nin 21-ci əsrin ehtiyac və problemlərinin öhdəsindən daha effektiv gəlməsi üçün mövqeyinin daha da yaxşılaşdırılması ilə nəticələnəcək.
- MİM-lərinə çatmaq Baş Katibin gündəliyində əsas yerlərdən birini tutmaqda davam edəcək.
- Yoxsulluq, qloballaşdırma, ətraf mühitin deqradasiyası və iqlim dəyişikliyinin təsiri ədalətli və hərtərəfli sosial və iqtisadi inkişaf, eyni zamanda qadınların, əlil insanların və yerli əhali üçü həssas olan məsələlərə qarşı tədbirlərin görülməsi üzrə BMT fəaliyyətinin əsas hissəsi olaraq qalacaq.
- İqlim dəyişikliyi http://www.un.org/climatechange hazırkı dövrümüzün əsas problemlərindən biridir. BMT Kyoto protokolunun qüvvədən düşməsinə qədər 2012-ci ilə qədər olan müddətdə, iqlim dəyişikliyi təhlükəsinə qarşı hərtərəfli qlobal çərçivə yaratmaq məqsədini güdür. BMT hələ də bu sahədə lider olaraq qalır. Baş Katib bütün BMT qurumlarının karbon neytral və Kyoto Protokoluna uyğunlaşma fonduna sərmayənin yatırılacağı barədə məlumat vermişdir.
- Ana və uşaq sağlamlığının, HIV/AIDS və Quş Qripi daxil olmaqla ictimai səhiyyə nəhəng çətinliklərə səbəb olur. Səhiyyəyə sərmayənin yatırılması iqtisadi inkişaf, insan inkişafı və qlobal təhlükəsizliyin təməl daşıdır. Son zamanlar maliyyə və insan resurslarının qlobal səhiyyə fəaliyyətinə geniş şəkildə yönəldilməsinin səmərəli olması məqsədi ilə uyğun fəaliyyət növlərinin inkişafı üçün cəhdlər ediləcək.
- Baş Katib daha zəif ölkələrin maraqlarına və ehtiyaclarına daha əlaqəli şəkildə xidmət etməsi üçün Katibliyin fəaliyyətinin səmərəliliyinin artırılması niyyətini göstərmişdir. Burada, iqtisadi, sosial və ətraf mühit məsələlərinin inkişaf, sülh və təhlükəsizliyə əsas hədə olduğu Afrika, İnkişaf etməkdə olan, dənizə çıxışı olmayan və kiçik ada dövlətləri daxil olmaqla xüsusi ehtiyacları olan ölkələrdə daha çox diqqət yönələcəkdir.
- İnkişaf etməkdə olan ölkələrdə regional və hökumətlər arası səviyyədə inkişaf və iqtisadi əməkdaşlığın regional ölçüsü BMT-nin fəaliyyətində xüsusi yer tutacaq.
- UNCTAD XII Konfransı http://www.unctadxii.org/en/ və İnkişaf üçün Maliyyələşdirmə Konfransı http://www.un.org/esa/ffd da daxil olmaqla, xüsusilə, maliyyə, inkişafa yardım və kredit, ticarət və gəlir, investisiya və texnologiya ilə əlaqədar inkişaf üzrə keçiriləcək mühüm BMT konfrans və tədbirlərinin əksəriyyəti BMT inkişaf gündəliyini daha da möhkəmləndirəcək.
- Baş Katibin Müavininin İnkişaf Gündəliyi üzrə Məsləhətləri BMT İnkişaf Gündəliyinin tərtib edilməsi və Təşkilatın inkişaf sütununu gücləndirilməsi üçün

əlaqələndirilmiş cəhdlərə yardımı davam etdirəcək. İcraçı Komitələrə yenidən baxışın bir hissəsi kimi, İqtisadi və Sosial Məsələlər üzrə İcraçı Komitənin effektivliyi gücləndiriləcəkdir.

## SÜLH VƏ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI ÜÇÜN BMT SƏYLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ

Baş Katib Birləşmiş Millətlər Təşkilatının münaqişələrin qarşısını alınmasında, sülhün yaradılması və qorunmasında olan rolunun gücləndirilməsi haqda qərarını ifadə etdi. Bunlar davam edən proseslərin hissələridir, və bu proseslərə yanaşmalar bütövlük təşkil etməli, əlaqələndirilməli və anlaşılan olmalıdırlar. BMT-nin preventiv diplomatiyasını və sabit sülh proseslərini dəstəkləməsi bacarığını möhkəmləndirmək üçün uzunmüddətli həllərin tapılmasına yardım edəcək və Təşkilatın münaqişə şəraitlərinə effektli təsir göstərməsi üçün təkan olacaq. Eyni zamanda, Üzv Dövlətlər BMT-nin Qlobal Terrorizmə qarşı Strategiyasının tətbiqinə yardım etməklə dünya miqyasında terrorizmə qarşı beynəlxalq müqavimətin formalaşmasına səbəb olacaq.

### Sülh əməliyyatlarının sabitləşdirmək və idarə etmək bacarığını gücləndirmək

*"Həddindən artıq çox tələb səbəbindən, bizim sistem gərginliklə üzləşib. Biz gələcəkdə hansı növ sülh əməliyyatlarını görmək istrdik? Bu islahatlar bizə gücləndirilmiş bacarıqlar, bir yerə cəmlənmiş dəstək, və daha effektiv, şəffaf və məsuliyyətli sistem tərəfindən üzərimizə düşən tələbləri yerinə yetirilməsi imkanını verəcək."*

- BMT tərəfindən təmin olunan sülh *http://www.un.org/Depts/dpko/dpko/* dünya üzrə milyonlarla insan üçün həyati əhəmiyyət daşıyır. Heç bir başqa çoxmillətli təşkilat müqayisə edilə biləcək dərəcədə bu qədər mülki və hərbi heyətdən istifadə etmir. Heç bir ikitərəfli iştirakçı bu həcmdə və belə mürəkkəb sahə əməliyyatlarında məşğul deyil.
- Bu misilsiz çətinliklərin öhdəsindən gəlmək üçün Baş Məclis Baş Katibin Sülh Qoruma Əməliyyatları Departamentinin (SQƏD) strukturunun dəyişdirilməsi, döyüş zonalarında qulluq edən işçilərin qəbulu, məsul vəzifələrin təyini və maliyyə idarə etməsi kimi köməkçi funksiyaların birləşdirilməsi məqsədi ilə Regionlara Dəstək Departamentin (RDD) yaradılması təkliflərini qəbul etdi. RDD-nın təsis edilməsi http://www.un.org/News/Press/dos/2007/ga10602.doc.htm resursların daha effektiv və məsuliyyətli idarə edilməsini, regionlarda fəaliyyətə yardım tələblərinə cavab vermə hazırlığını təmin edəcək.
- Sülh Qoruma Əməliyyatları Departamenti (SQƏD) missiyanın effektiv idarə edilməsi, strateji planlaşdırma və siyasi rəhbərlik üzərində diqqəti cəmləşdirəcək, və regional təşkilatlarla sıx əlaqənin gücləndirilməsini daxil etməklə BMT və qeyri-BMT iştirakçılarının əməkdaşlığına şərait yaradacaq. SQƏD daxilində Qanunun Aliliyi və Təhlükəsizlik İnstitutları, Hərbi İşlər və Polis kimi əsas sektorlar artıq gücləndirilmişdir. Yalnız sülh qoruma prosesinin artmasını nəzərə alaraq gələcəkdə artıq vəsaitlərə ehtiyac olacaq.

- Sahə təchizatı Departamenti ümumilikdə sistemi və BMT-nin sahə missiyalarını təchizini daha effektiv loqistika, personal, maliyyə, kommunikasiya və informasiya texnologiyaları ilə təmin edəcək. Kompleks Əməliyyatlar Qruplarının yaradılması vasitəsi ilə hər iki Departament birlikdə işləyərək maksimal effektivliyə, məsuliyyət və şəffaflığı təmin edilməsinə və səylərin ahənginin yaradılmasına köməklik məqsədilə aydın hesabat və məruzə xətlərinin gücləndirilməsinə nail olacaqlar.

## Preventiv diplomatiya, vasitəçilik, sülhməramlılıq və sülhün təmin edilməsi və sülh yaratma proseslərinin artırılması

*"BMT-nin müdaxilə etmək səlahiyyətlərini gücləndirmək – münaqişələrin sonrakı yox daha erkən mərhələdə həlli – edilə biləcək ən gözəl sərmayəmiz ola bilər"*

BMT nəinki sülh razılaşması əldə olunduqdan sonra vəziyyəti sabitləşdirmək üçün hərbi kontingenti cəbhə boyu yerləşdirməsi səlahiyyətini artırmalıdır, həmdə siyasi üsullarla münaqişələrin qarşısını almaq və həll etmək bacarığını gücləndirməlidir. Baş Katib, münaqişələrin geniş və daha çox maliyyə tələb edən fəlakətlərə gətirməzdən əvvəl erkən mərhələdə qarşısı alınması və həll olunması üçün BMT-ni daha yaxşı təchiz edilməsi və mövqeyinin yaxşılaşdırılmasını arzulayır.

- Bu məqsəd ilə Baş Katib 2007-ci ilin noyabr ayında Siyasi İşlər Departamentini gücləndirilməsi və yenidən qurulması haqda təkliflərini açıqladı. Bu təkliflər planına əsasən departamentin daha mobil və sahə yönümlü, aktiv və effektiv preventiv diplomatiya vasitələrindən istifadə edən struktura transformasiyası, və Baş Katibin xoşməramlı vasitəçiliyi də daxildir. Struktur dəyişikliyinin bəzi elementləri aşağıdakılardır:
  - Gücləndirilmiş regional işlər üzrə şöbələri
  - Potensial münaqişə ərazilərində yüksək səfərbərlik
  - Carı sahə əməliyyatlarının gücləndirilmiş idarə etmə və nəzarəti.
  - Üzv Dövlətlərlə aparılan məsləhətləşmələr əsasında, münaqişələrin qarşısını alınmasında və həllində regional təşkilatlarla və Hökumətlərlə yaxından əməkdaşlıq edə bilən regional ofislərin tədricən yaradılması
  - Potensial problemlərin geniş şəkildə yayılmasından əvvəl müəyyən edilməsi və vaxtında həll olunması üçün Hökumətlərlə təkmilləşmiş iş imkanı.
- Siyasi İşlər Departamenti çərçivəsində olan Vasitəçiliyə Dəstək Bölüyü artıq regional şöbələrlə sahələrdə münaqişələrin qarşısını alınması və həll edilməsinə çalışan BMT-nin sülh elçilərinə yardım məqsədilə birgə işləyir. BMT-nin tam növbəli "ehtiyat" vasitəçilər komandası 2008-ci ilin mart ayında əməliyyata başlayıb, və bu komanda bütün dünya üzrə vasitəçilik səylərini ekspert məsləhətləri ilə təmin edəcək.
- Münaqişə şəraitində olan ölkələrə yardım etmək və yenidən qeyri-sabitlik və yeni müharibə vəziyyətinin qarşısını almaq məqsədi ilə Sülh Qurma Komissiyası (SQK) http://www.un.org/peace/peacebuilding/, onun Təchizat Ofisi http://www.un.org/peace/peacebuilding/pbso.shtml , və Sülh Qurma Fondu 2005-ci il Dünya Sammitində Üzv Dövlətlərlə məsləhətləşmə əsasında təsis olunmuşdurş

Bunlar Təşkilatın sülhün möhkəmləndirilməsi və idarəetmə və inkişaf, uzun müddətli stabilliyin təmin olunması üçün təməlin qoyulması üçün sülh quruculuğunun etibarlı yol olması haqda inamını əks edir.

- Sülh Quruluşu Komissiyanın nəzarəti altında olan iki ölkə Burundi və Sierra Leone yeni işlərin açılması, səmərəli idarəçilik, qanunun üstünlüyü, demokratiyanın möhkəmləndirilməsi və təhlükəsizlik sektorunda islahatları prioritet sahələr kimi müəyyən etmişlər. 2007-ci ildə Qvineya-Bisau üçüncü ölkə oldu ki, SQK tərəfindən Təhlükəsizlik Şurasının dəstəyi ilə gündəliyə salındı. http://www.un.org/Nesws/Press/docs/2008/pbc28.doc.htm/
- BMT-nin Demokratiya Fondu (UNDEF) http://www.un.org/democracyfund/ yeni və bərpa olunmuş demokratiyaları gücləndirmək və irəliyə çəkmək məqsədini daşıyan layihələri qrantlarla mükafatlandırır. 62 milyon ABŞ dollarına malik olan Fond BMT-nin uyğun olan departamentləri, bölmələri, fondları, proqramları və agentlikləri daxil olmaqla, hökumət, qeyri-hökumət, milli, regional, beynəlxalq təşkilatlara dəstək göstərir. 2006-cı ildə layihə seçiminin və vəsaitlərin ödənilməsinin birinci mərhələsində, Baş Katib əsasən Afrikanın aşağı Saxara bölgəsinə həsr olunmuş ümumi dəyəri 36 milyon ABŞ dolları olan 125 layihə təsdiq etmişdir. İkinci mərhələ üçün sənəd qəbulu 2007-ci ilin axırında elan olunmuşdur. http://www.un.org/democracyfund/XLatestUpdate.htm. Məsləhət olunmuş layihələrin siyahısını nəzərdən keçirmək üçün BMT-nin Demokratiya Fondunun (UNDEF) Məşvərətçi Şurasının görüşü 2008-ci ilin mart ayında keçirildi. http://www.un.org/apps.news/story.asp?NewsID=26134

## Terrorizmə qarşı qlobal şəkildə mübarizə

*“Terrorizm bütün millətlərə zərər vurur – böyük və kiçik, kasıb və varlı. O, yaşından və gəlirindən, dinindən və mədəniyyətindən asılı olmayaraq, insan itkiləri ilə nəticələnir. BMT-nin müdafiə etdiyi hər bir şeyə qarşı çıxır. Terrorizmlə mübarizə bizim ümumi missiyamızdır.”*

Terrorizmin BMT-nin gündəliyində onilliklər ərzində olması ilə yanaşı, 2006-cı ilin sentyabr ayında tarixdə ilk dəfə, BMT-nin Üzv Ölkələri terrorizmə qarşı ümumi strateji və operativ yanaşma sistemini razılaşdıraraq Baş Məclis zamanı BMT-nin Qlobal Terrorizmə Qarşı Strategiyasını qəbul etmişlər.

- Strategiya hər bir Üzv Dövlət üçün terrorizmin yayılmasına imkan yaradan şəraitlərlə ünvanlanmaq, terrorizmin qarşısını almaq və ona qarşı mübarizə aparmaq, dövlətlərin bunları həyata keçirmək üçün fərdi və kollektiv imkanlarının artırılması və terrorizmlə mübarizədə hüququn aliliyini rəhbər tutmaq üçün individual və kollektiv şəkildə görülməli olan konkret ölçüləri müəyyənləşdirir. Strategiya Üzv Dövlətləri burada əks olunmuş fəaliyyət planının təchizatını yerinə yetirmək üçün BMT sistemi ilə birgə işləməyə və eyni zamanda BMT sistemi təşkilatlarını Üzv Dövlətlərlə səylərində yardımçı olmağa çağırır.
- BMT-nin departamentləri, proqramları, fondları və agentlikləri bir sıra sahələrdə Terrorizmə Qarşı Mübarizə Operativ Qrupu (CTITF) çərçivəsində həm individual həm də kollektiv şəkildə fəaliyyət göstəriblər.

- http://www.un.org/terrorism/bacjkground-material.htm
- BMT sisteminin 24 təşkilatından ibarət olan CTIFT http://www.un.org/terrorism/cttaskforce/shtml Üzv Dövlətlərlə birgə işləyir ki, BMT sisteminin təşkilatları fayda verə biləcək sahələrdə Strategiyanın icrasını asanlaşdırsın

### Tərksilah və silahların yayılmaması məsələsinin gündəmə gətirilməsi

*"Kütləvi qırğın silahları haqda yüksələn qlobal həyəcan şəraitinə, bu qorxulu situasiya gündəlikdə olan tərksilah məsələsini canlandırmağa çağırır."*

Nüvə silahları və digər kütləvi qırğın silahları həmçinin adi silahlar səbəbindən yaranan davamlı risk, bir daha tərksilah məsələsini canlandırmaq üçün yüksək səviyyəli və qətiyyətli rəhbərliyə ehtiyac duyulduğunu qeyd edir.

- Yüksək səviyyəli qərar qəbulunu və hər iki istiqamətdə həm tərksilah həm də silahların yayılmasının qarşısını almaqda fəaliyyətin yenidən gücləndirilməsini təmin etmək üçün Baş Katib Katibliyin yeni hissəsi olan və Baş Nümayəndənin rəhbərliyi altında olan Tərksilah İşləri üzrə İdarəni (Tİİ) http://disarmament2.un.org/dda/htm  təsis etdi.

## DÜNYANIN BÜTÜN XALQLARINA İNSAN HÜQUQLARININ TƏMİN EDİLMƏSİ

### İnsan Hüquqları üzrə Ali Komissarın fəaliyyətinin genişləndirilməsi

*"Ruanda, Kamboca və Balkan ölkələrində olan qətl sahələri fəaliyyət üçün iradə və gələcək planın olmadığı səbəbindən beynəlxalq sistemdə hələ də yoxlanılmamış qalan vəhşiliyin sakit şahidləridir"*

Katibliyin bir hissəsi olan İnsan Hüquqları üzrə Ali Komissarlığın Ofisi (OHCHR) http://www.ohchr.org/EN/Pages/WelcomePage.aspx beynəlxalq ictimaiyyətdən bütün insan hüquqlarının təbliği və müdafiəsi  üzrə mandat almışdır.

- BMT-nin insan hüquqlarına olan yanaşması OHCHR tərəfindən müəyyən edildiyi kimi iki mühüm strateji sənəddə öz əksini tapmışdır: OHCHR-ın Fəaliyyət Planı (keçmiş Baş Katibin 2005-ci il üçün olan *Geniş Azadlıqda* *http://www.un.org/largerfreedom/* hesabatında öz əksini tapmışdır) və 2008-2009-cu illər üçün Strateji İdarəetmə Planı http://www.ohchr.org/Documents/Press/SMP2008-2009.pdf. Müasir dövr insan hüquqları üzrə problemləri aradan qaldırmaq üçün daha effektiv yolların tapılması məqsədi ilə dörd mühüm sahə - rəhbərlik, ölkənin cəlb olunması və BMT sisteminin daxilində və ondan kənarda əməkdaşlıq, eyni zamanda onun BMT insan hüquqları mexanizmləri (İnsan Hüquqları Şurasında insan hüquqları üzrə müqavilə orqanları) ilə özünəməxsus münasibətləri sahələrində OHCHR müxtəlif strategiyalardan istifadə edir.

- OHCHR geniş mandatının həyata keçirilməsi üçün daha da güclənməyə çalışır. Bunun aşağıdakı nəticələri vardır:

    1) 2007-ci ilin sonuna qədər 47 ölkədə ofis təsis etməklə, regionlarda iştirakının əhəmiyyətli dərəcədə genişləndirilməsi
    2) Qadın hüquqları və gender, inkişaf hüququ, iqtisadi, sosial və mədəni hüquqlar, hüququn aliliyi kimi tematik təcrübənin genişləndirilməsi
    3) İnsan hüquqları sahəsində daha aşkar üstünlüyə nail olmaq
    4) Yeni vətəndaş cəmiyyəti birliyinin yaradılması da daxil olmaqla BMT və vətəndaş cəmiyyəti ilə daha da gücləndirilmiş əməkdaşlıq
    5) Siyasi, planlaşdırma, monitorinq və imkanların qiymətləndirilməsinin bu sahələrdə ixtisaslaşmış bölmələrin yaradılması vasitəsilə gücləndirilməsi

- OHCHR BMT-nin daimi büdcəsindən mütəmadi maliyyə dəstəyi alır, və 2005-ci Dünya Sammiti beş il müddətində BMT büdcəsində OHCHR-ın payının iki dəfə artırılmasını qarşısına məqsəd qoymuşdur. 2008-2009-cu illərin büdcəsi Üzv Dövlətlərin bu məqsədə öhdəliklərini əks etdirir və insan hüquqlarının BMT fəaliyyətinin əsas tərkib hissəsi olduğunu göstərir. http://www.un.org/apps/news/story.asp?NewsID=24417&Cr=budget&Cr1
- OHCHR-ın daimi büdcədə payının son illərdə artmasına baxmayaraq, onun aldığı məbləğ yalnız onun maliyyə ehtiyaclarının yalnız təqribən üçdə-birini ödəyir. Könüllü ianələr OHCHR-ın dünya üzrə fəaliyyətini gücləndirməsi və genişləndirməsinə yardım edir.

## İnsan Hüquqları Şurasının gücləndirilməsi

- İnsan Hüquqları üzrə komissiyanı əvəz edən İnsan Hüquqları Şurası http://www2.ohchr.org/english/bodies/hrcouncil/ Baş Assambleya insan hüquqları üzrə məsuliyyət daşıyan əsas BMT dövlətlərarası qurumdur. Şura öz mütəmadi sessiyalarında, eyni zamanda, spesifik insan hüquqları üzrə beş xüsusi iclasında (2—7-ci ilin sonuna qədər) geniş sayda real insan hüquqları məsələlərinə müraciət etmişdir. Təsis olunduqdan bir il sonra və Baş Assambleyanın 60/251 qətnaməsinə uyğun olaraq Şuranın fəaliyyətinin əsasını təşkil edən prosedurlar, mexanizmlər və strukturları təşkil edən elementlər paketi üzrə razılığa gəlmişdir.
- Ümumdünya mütəmadi baxış mexanizmləri üçün (UPR) üsulların hazırlanması Şuranın qurum-yaratma sahəsində əsas nailiyyətlərindən biri olmuşdur. Bu mexanizm vasitəsi ilə Şura bütün BMT Üzv Dövlətləri üçün insan hüquqları öhdəçiliklərinin mütəmadi əsasda həyata keçirilməsinə baxış keçirir. UPR 60 illiyi 10 dekabr 2008-ci ilə təsadüf edən İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsində http://www.ohchr.org/EN/UDHR/Pages/60UDHRIntroduction.aspx qeyd olunan prinsiplərin tətbiqinə nəzarət edən ilk ümumdünya mexanizmidir.
- Baş Katib, Şuranın qurum təsis etmə olan birinci mərhələsinin sona çatması barədə məlumat vermiş və güclü və əhəmiyyətli UPR-ın yaradılması üşullarını müsbət qarşılamışdır. Bu aydın göstərir ki, heç bir ölkə, kiçik və ya böyük olmasından asılı

olmayaraq, nəzarətdən kənarda qalmayacaq http://www.un.org/apps/sg/sgstats.asp?nid=2626.

- Baş Katib bütün ölkələri öhdəliklərinə daha ciddi yanaşmağa və Şuranın işinin yaxşılaşdırılması üçün gələn aylar və illər ərzində yollar axtarmaqda davam etməyi çağırıb. Sonra o, Şuranı insan hüquqları üzrə işığın daşıyıcısı kimi öz məsuliyyətlərinə daima sadiq qalmağa və insan hüquqları sahəsində mümkün pozuntulara bərabər şəkildə baxılmasına tələb edib.

### Mülki şəxslərin müdafiəsi və genosidin qarşısının alınması

- Baş Katib 191 dünya lideri tərəfindən qəbul edilmiş 2005-ci il Dünya Sammitinin Yekun Sənədi olan Müdafiə Məsuliyyətinin təmin edilməsi sənədinin http://www.ony.unu.edu/seminars/2007/R2P/2005%20World%20Summit%20Outcome.pdf tam təmin etmək üçün Üzv Dövlətlərlə işə olan ehtiyacı vurğuladı. Adətən R2P kimi göstərilən anlayış dövlətlərə etnik təmizləmə, genosid və ya bəşəriyyətə qarşı digər cinayət hallarından əhalilərinin qorunması və Dövlətlərin bu kimi məsuliyyətə uyğun hərəkət etmədikləri hallarda beynəlxalq icmanı məsələyə müdaxilə etməkdə məsuliyyətini qeyd edir. Baş Katib sənədi sözdən əmələ çevirməkdə Üzv Dövlətlər və vətəndaş cəmiyyəti üçün birgə işləməyə vəd vermişdir.
- 2007-ci ilin may ayında Baş Katib genosidə səbəb ola biləcək ciddi insan hüquqları pozuntuları barədə məlumatın toplanması və potensial soyqırım vəziyyəti barədə Təhlükəsizlik Şurasının diqqətinə çatdırılması mandatı olan Soyqırımın Qarşısının alınması üzrə Xüsusi Nümayəndənin təyin olunması niyyətini bildirmişdir. O, eyni zamanda, 2005-ci il Dünya Sammiti Yekun Sənədində qeyd olunan öhdəliklərin operativliyinin təmin olunması üçün fəaliyyət təşəbbüsü irəli sürmüşdür.

## HUMANİTAR HƏRƏKATIN GÜCLƏNDİRİLMƏSİ

### Humanitar böhranın dəyişən simasına reaksiya

*"Birbaşa humanitar fəaliyyətimiz olan gündəlik yardımlar davam etdirilməlidir. Bu heç bir zaman danışıqların yeni mərhələsinin açılmasını, və ya növbəti sülh müqaviləsinin imzalanmasını gözləyə bilməz. Bu cəld, fəal və effektli olmalıdır."*

- Hər zaman bütün insanlara aid olan humanitarizm ümumbəşəri anlayışdır. Humanizmin mahiyyətinə insaflıq və qərəzsizlik prinsipləri köklənir.
- Buna baxmayaraq müasir humanitarizmin tələbləri bizim səylərimizin daha da artmasını tələb edir ki, bu da təmin olunan yardımın daha hesabatlı, şəffaf, aydın və məqsədyönlü formada böhran vəziyyətdə olan insanların lazımı vaxt həyatlarını xilas etməyə yardım etsin.
- Bu məqsədləri həyata keçirmək məqsədi ilə Humanitar İşlərin Koordinasiyası İdarəsi (HİKİ) ümumdünya humanitar həmrəyliyin qüvvətlənməsinə yönəlmiş bir neçə təşəbbüslərə başlamışdır. Bu işlər üç prinsipial kateqoriyalara bölünür: öncədən müəyyən edilə bilən maliyyələşdirilmə, daha geniş yeni maliyyə mənbələri və maliyyə mexanizmləri, sahələr üzrə koordinasiyasının daha yaxşı olması, əlaqələrin artırılması, boşluqların və təkrarlanmanın minimuma endirilməsi, BMT

nin humanitar işlər üzrə koordinatorların və daimi işçilərinin ixtisaslaşdırmasının təmin olunması.

Bundan əlavə HİKİ BMT və BMT dən olmayan təşkilatlarla bərabərhüquqlu ümumdünya humanitar əməkdaşlığın artmasında bilavasitə maraqlıdır.

- 2007-ci ildə HİKİ birinci Qlobal Humanitar Platformanı təşkil etmişdir və bu platforma əməkdaşlığı və qarşılıqlı razılaşma prinsipləri əsasında yaradılan əlaqələri möhkəmləndirmək üçün Qırmızı Aypara , Qırmızı Xaç cəmiyyətlərini və BMT nümayəndəliklərini bir araya toplamağa təşəbbüs göstərmişdir.

- Humanitar maliyyələşdirməni gücləndirmək üçün göstərilən təşəbbüslərdə Mərkəzi Fövqəladə Çağırış Fondunun da rolu var. Əlavə olaraq Birgə Müraciət Prosesinin humanitar maliyyələşdirmənin uyğun təchizatı üçün Ehtiyacların Əmlak Quruluşu ilə birlikdə gücləndirilməsi prosesi də aparılır.

- 2006-cı ilin martında fəaliyyətə başlaması ilə Mərkəzi Fövqəladə Çağırış Fondu BMT-nin qəfil baş verən fövqəladə hallara və fond daxilində olan xroniki çağırışlara olan cavab reaksiyasını daha cəld və daha ədalətli olaraq formalaşdırmışdır. Baş Assambleya 2008-ci ilə qədər Mərkəzi Fövqəladə Çağırış Fondunun büdcəsinin 500 milyon dollara çatdırılması üçün bu təşkilatla əməkdaşlığa çağırmışdır. 90-dan çox donor ölkənin və 400 milyon dollar məbləğində zamin və qəbul edilən pul vəsaitlərininköməkliyi Mərkəzi Fövqəladə Çağırış Fondu artıq həyatları xilas etməyə başlayıb. Fondla bağlı hədəflərə çatmaq üçün daha çox işin görülməsinə ehtiyac var.

- Digər başlıca təşəbbüslərdən biri də Qrup Yaxınlaşmasıdır və burada əsas məqsəd təhsil və ya səhiyyə kimi sahələrin hər birində şəffaf başlıca orqanın olmasını təmin etmək və humanitar yardımlarda ixtilafların və ikili standartların qarşısını almaqdır. Qrup rəhbəri eyni sektorun müxtəlif təşkilatları arasında əmək bölməsinə görə məsuliyyət daşıyır və əsas məqsəd fəlakət baş verməsi haqqında əvvəlcədən xəbər verə bilən həmkarların tapılmasıdır. Qrup yaxınlaşması qlobal humanitar cavabdehlik imkanlarını möhkəmləndirmək məqsədilə ölkə səviyyəsində qabaqgörənliyi , əməkdaşlığı və sahələr üzrə koordinasiyanı inkişaf etdirməyə çalışır.

- İqlim dəyişikliyi ilə bağlı qeyri-adi hava hadisələrinin sayı artmaqda davam edir və hətta indi daha çox sayda insan zərər çəkərək yaşayır. Bu baxımdan fəlakət riskinin azalması və hazırlıq səyləri daha zəruridir. HİKİ fəlakət hazırlıqları və cavabdehliyi, təsadüfi planlaşdırma və digər səylər üzərində birgə çalışmaqla regional və milli səviyyələrdə əməkdaşlığı gücləndirməyə çalışır. Humanitar birlik həmçinin iqlim dəyişikliyinin dünyanın yoxsul insanlarına vura biləcəyi potensial dağıdıcı effekt haqqında daha böyük xəbərdarlıq fəaliyyəti ilə məşğul olmağa çalışır.

## ƏMƏLİYYAT TƏCRÜBƏSİ VƏ İDARƏETMƏ İLƏ BAĞLI İSLAHATLAR APARILMASI

Baş Katib daha effektiv fəaliyyət göstərən Təşkilat qarşısında öz öhdəliklərini ifadə etmişdir. Nitqi zamanı əldə olunan nəticələri xüsusi vurğulayan Baş Katib işləri həyata keçirmək üçün daha çox diqqətli olmağa çağırmışdır. Meyarların geniş silsiləsi öhdəliyin müxtəlif hissələrini təşkil edir. Ümumi götürdükdə dəyişikliklər effektiv BMT üçün dayaqlar yaradılmasına kömək edəcək və burada mütəxəssislərin qlobal və dinamik işbirliyi təsirli və şəffaf sistemin köməkliyi olmadan bütün məsələlərə görə məsuliyyət daşımağa hazır olacaq .

## Məsuliyyətin və nəzarətin təkmilləşdirilməsi

“Məsuliyyəti daha da təkmilləşdirmək üçün təkcə onun haqqında danışmaq kifayət deyil. Biz öz daxili sistemimizi dərindən və təfərrüatları ilə nəzərdən keçirməliyik və onları təkmilləşdirmək üçün hansı praktiki addımlara ehtiyac olduğunu yoxlamalıyıq.”

- Üzv ölkələr BMT-nin əməliyyatlarla bağlı fəaliyyətlərinin daha böyük imkanlarının vacibliyini və baxışları nəzərə almalıdırlar.

- Baş Katib inanır ki, idarəetmə islahatlarının məqsədi Qətnamənin əsaslarına və BMT missiyasına uyğundur, yəni Təşkilatın resursları və işçi heyəti dünya əhalisinin güzəranını yaxşılaşdırmaq istiqamətində daha çox çalışacaqlar.

- Baş Katib şəffaflığın, effektivliyin və məsləhətləşmə , birgə iş və qarşılıqlı yardımın köməkliyi ilə üzə çıxarılan təqdimatın gücləndirilməsi istiqamətində tapşırıqlar vermişdir. Onun tapşırıqlarının real təzahürü baş menecerlərlə illik Təqdimat Müqaviləsinin imzalanması istiqamətində məsləhət xarakterli danışıqlara başlamasında özünü büruzə verir. Buna müvafiq olaraq Baş Katib illik təqdimatın menecmentini yaratmaq üçün baş menecerlərlə məsləhətləşmələr aparır.

- Menecment Komitəsi menecment siyasəti, islahatları bağlı məsələlər, həmçinin resursların hazırlığı və büdcə təklifləri üçün strateji istiqaməti təmin etmək üçün digər bir başlıca alətdir. Bu komitə həmçinin yoxlayıcı orqanların zəmanəti üçün adekvat institutsional addımlarla da təchiz edə bilər. Komitəyə həmçinin Baş Katibin müavini də rəhbərlik edir.

- Baş Katib Şəffaflığın Quruluşunu formalaşdırmaqla Katibliyin şəffaflığını gücləndirmək istiqamətində məsləhətlər vermişdir.

- http://daccessdds.un.org/doc/UNDOC/GEN/N08/243/25/DPF/N0824325 Açıq element nəticələrin uğurunu və risk menecmentini bir yerdə cəmləşdirir.

- Baş Katib fərdi insanlar üçün riskin idarə olunmasına, oxşarlığa və xüsusi nəticələrə nail olmaq üçün şəffaf təyin olunmuş cavabdehliyin köməkliyi ilə hesablaşma prosesini nəzərdən keçirmək niyyətindədir.

- BMT hesablaşma proseslərini məqsədi maliyyə hesabatlarının keyfiyyətini və effektivliyini gücləndirmək olan Beynəlxalq İctimai Sektor üzrə Hesablama Standartlarını (BİSHS) qəbul etməklə mükəmməlləşdirir. Hazırlıqlar artıq başlayıb və BMT BİSHS-in 2010-cu ilə qədər başa çatdırılmasını gözləyir.

- BMT-nin əldə etdiyi təcrübənin nəzərdən keçirilməsi çox mühümdür. www.un.org/Depts/ptd/. Ciddi nəzarəti və bələdçiliyi həyata keçirmək üçün çox güclü səy göstərilir. İntensiv məşğələlər və texnologiyadan daha yaxşı istifadə olunması , həmçinin əxlaqi və effektiv əhəmiyyətin gücləndirilməsi ilə profesionallıq daha da artırılır.

- 2008-ci ilin yanvarında fəaliyyətə başlayan yeni orqan olan Müstəqil Audit Məsləhəti Komitəsi(MAMK) yoxlama idarəçiliyinin funksiyalarını həyata keçirmək üçün Baş Assambleyaya yardım edəcək. MAMK Auditorlar Palatası, Daxili Nəzarət Xidməti İdarəsi (DNXİ) kimi tədqiqat və audit orqanlarının auditi və nəzarət funksiyaları istiqamətində Baş Assambleyaya məsləhətlər verəcək.

## Yüksək etik standartların müəyyən edilməsi

*“Mən yüksək etik standartların tətbiqinə çalışacağam. Birləşmiş Millətlərin nüfuzlu adı ən müsbət keyfiyyətlərdən biridir – lakin, eyni zamanda ən həssas məsələlərdən biridir. Nizamnamə işçi heyəti səmərəlilik, səriştə və səmimiliyin yüksək səviyyəsini saxlamağa çağırır və bu standartlarla uyğunlaşmaq üçün möhkəm nüfuz əldə etməyə çalışacağam.”*

- 2005-ci il Dünya Sammitinin Nəticəsi [A/RES/60/1 - PDF, 283KB] mövcud davranış standartlarının vicdanlı tətbiqi və bütün Birləşmiş Millətlər işçi heyəti üçün bütün sistemi əhatə edən etik kodeksin hazırlanması
- Baş Katib və Baş Katibin Müavini vəzifələrinə başlayandan az sonra öz maliyyə gəlirləri barədə ictimaiyyətə açıqlama etdilər və eyni zamanda, bütün yüksək rütbəli rəsmiləri də bunu etməyə çağırdılar. Yüksək vəzifəli işçi heyətin, alqı-satqı və sərmayə ilə və yaxud gizli alqı-satqı və investisiya məlumatına çıxışı olan heyətin maliyyə gəlirləri barədə açıqlama vermələri hazırda Katibliyin (ST/SGB/2006/6) təsdiq edilmiş xüsusiyyətlərindən biridir. BMT Gəlirlərin Açıqlanması Proqramının tələbi deyil, Baş Katib öz yüksək rütbəli rəsmilərini onun nümunəsini təkrar etməyə və könüllü əsasda öz maliyyə gəlirləri barədə məlumatları açıqlamağa çağırır. Könüllü şəkildə öz gəlirləri barədə açıqlama verən yüksək rütbəli rəsmilərin bəyannamələrini BMT-nin http://www.un.org/sg/PublicDisclosure.shtml veb saytında tapmaq olar.
- Bitərəf Etik məsələlər üzrə məsul şəxs (Etik məsələlər üzrə məsul şəxsin məsuliyyətləri) http://www.un.org/reform/ethics/index.shtml 2006-cı ilin yanvar ayında təyin edilmişdir. Etik məsələlər üzrə məsul şəxs işçi heyəti etik və ədalət məsələləri üzrə gizli məsləhətləşmə ilə təmin edir, maliyyə açıqlaması proqramını

idarə edir və pozuntular barədə məlumat verənləri cavab zərbəsindən qoruyur. Bütün işçi heyəti etik məsələlər üzrə təlim keçməlidir. Birləşmiş Millətlərin heyəti üçün etik kodeks yaradılmaqdadır.

- Bütün BMT fond və proqramlarına tətbiq olunan etik standartların vahid toplusu və siyasəti üçün çərçivə 2007-ci ildə noyabr ayında yaradılmışdır. (ST/SGB/2007/11 Birləşmiş Millətlər Təşkilatının bütövlükdə etik məsələlərin tətbiqi: ayrılıqda idarə olunan orqanlar və proqramlar http://daccessdds.un.org/doc/UNDOC/GEN/N07/621/09/PDF/N0762109.pdf?OpenElement) Burada əsas amillərdən biri 2008-ci il yanvar ayında BMT Etik məsələlər üzrə Komitəsinin yaradılması idi. Onun mandatı vahid etik standart və siyasət yaratmaqla yanaşı Etik Məsələlər üzrə Ofis və ya Etik Məsələlər üzrə Komitənin Sədri tərəfindən qaldırılan mühüm əhəmiyyətli və xüsusi diqqət tələb edən, eyni zamanda bütövlükdə BMT sisteminə təsiri olan məsələlər üzrə məsləhətləşmə təmin edir. Bu etik standartların Birləşmiş Millətlər Təşkilatı daxilində uyğun tətbiqini təmin edir.
- Hər bir BMT fond və proqramı Etik Məsələlər üzrə Ofis yarada bilərlər. Əks halda bu vəzifə BMT Katibliyinin Etik Məsələlər üzrə Ofisi tərəfindən həyata keçirilir. Etik məsələlər üzrə Ofisin fəaliyyət göstərdiyi fond və ya proqramlar müstəqil şəkildə fəaliyyət göstərmək və bir başa İcraedici Rəhbərlərə hesabat vermək mandatları var. Fond və ya proqramın 2008-ci ilin yanvar ayına qədər etik məsələlər üzrə məsul işçi təyin etmədiyi halda onun vəzifələrini BMT Katibliyinin Etik Məsələlər üzrə Ofis həyata keçirir. Əvəzini ödəməyə qarşı müdafiənin olmadığı halda, fond və ya proqramın işçi heyət üzvləri bundan müdafiəni tələb edə bilərlər. (Baş Katibin Bülletenində göstərildiyi kimi ST/SGB/2005/21 http://daccessdds.un.org/doc/UNDOC/GEN/N05/651/55/PDF/N0565155.pdf?OpenElement)
- Nəzarət və şəffaflığı nəzərə alaraq Etik məsələlər üzrə Komitənin Sədrinə ünvanlanan hər bir məsələnin xülasəsi BMT Etik məsələlər üzrə Ofisinin Baş Assambleyaya olan İllik Hesabatında göstərilməlidir.

## Effektiv, şəffaf və xidmətə yönəlmiş Katibliyin təmin olunması

*“Gözlənilən işin həyata keçirilməsi üçün BMT-nin güclü və möhkəm səlahiyyətli Katibliyə ehtiyacı var. Mən səmərəli, məqsədyönlü, praqmatik və cavabdeh naticələrə yönəlmiş inzibatçılıq arzusundayam”*

- BMT-nin müasirləşdirilməsi və idarəetmədə islahat prosesinin dəstəklənməsi üçün İnformasiya və Kommunikasiya Texnologiyası (İKT) çox mühüm alətdir. Əsas elementlərdən biri Təşkilat Resurslarının Planlaşdırılmasının (TRP) təqdim edilməsidir. Təşkilatın insan, maliyyə və fiziki resursları barədə bütün məlumatın toplandığı sistem daha effektiv və səmərəli idarəetmə, daha yaxşı hesabat və daha yönümlü və mexaniki prosesləri mümkün edəcək.
- BMT-nin birinci İnformasiya Texnologiyaları üzrə baş məsul işçisi 2007-ci ilin avqust ayında http://www.un.org/News/Press/docs/2007/sga1076.doc.htm öz vəzifələrini yerinə yetirməyə başladı. İKT-nin idarəetmə çərçivəsi və strategiyası

Baş Katib tərəfindən 2008-ci ilin birinci yarısında Baş Assambleyaya təqdim edəcək.

- Baş Katib eyni zamanda mövcud qaydaların daha səmərəli olmasını təmin edən sadələşdirmə, səmərələşdirmə, şəffaflıq və cavabdehliyə nail olmaq üçün Rəhbərliyin Dəyişdirilməsi üzrə Yüksək Səviyyəli İşçi Qüvvə yaratmışdır.
- 2007-ci il dekabr ayında Baş Assambleya BMT Qərargahları sisteminin fiziki yeniləşdirilməsini təsdiq etmişdir. Baş Planına (CMP) əsasən http://www.un.org/cmp/uncmp/english/index.asp "yaşıl" planın əsas aspektidir. Layihənin 2008-ci ildə başlaması və 2013-cü ilə qədər sona çatdırılması nəzərdə tutlur.

**Daxili ədalətlilik prinsipinə riayət etməklə çevik, məharətli və əsaslandırılmış heyətin yaradılması**

*"Əgər biz BMT-nin ehtiyacı olan kadrları cəlb etmək, işçi heyətini daha da möhkəmləndirmək və onların yüksək keyfiyyətə malik olmasını istəyiriksə, biz öz insan resurslarımızın quruluşunu dəyişməli və keçmişdən kök salmış qaydalardan uzaqlaşdırmalıyıq."*

- BMT-nin işçi heyətinin profili kəskin şəkildə dəyişib. Hazırda heyətin 60 faizindən çoxu Baş Katibin Katibliyi daha çevik və məharətli etmək üçün bəzi addımlar atdığı bölmədə çalışır.

- Baş Katib heyətin möhkəmləndirilməsi, həmçinin bir heyət üzvünün eyni vəzifədə qalmağı müddətinin məhdudlaşdırılması, bununla yanaşı BMT-nin dəyişən prioritetləri ilə ayaqlaşmaq və karyera uğurlarına yardım etmək məqsədilə imkanların inkişaf etdirilməsi və əlavə bacarıqların tələb olunması istiqamətində tapşırıqlar vermişdir.

- Yüksək keyfiyyətli kadrları cəlb etmək , onları toplamaq və bir yerdə saxlamaq olduqca zəruridir. Bacarıqlı idarəetmə üçün yeni informasiya texnologiyaları vasitələrinin inkişaf etdirilməsi üçün planlar hazırlanır. Bu plan 2008-ci ildə başa çatacaq və insan resurslarının sistematik və effektli idarə olunmasını daha mülayim vasitələrlə təmin edəcək.

- Təlim işinə gəldikdə isə Baş Katib Təşkilatın işçi heyətinin bütün üzvləri üçün davamlı tədrisin təmin olunması üçün dolğun tapşırıqlar verib. Möhkəmləndirmə prosesi 2008-ci il ərzində davam edəcək və heyət üzvlərinin Karyera Resursları Mərkəzinin imkanlarından istifadə etməklə karyeranın inkişaf etdirilməsi üçün tələb olunan bacarıq , bilik və rəqabət qabiliyyəti əldə olunmayana qədər davam etdiriləcək.

- Baş Katib və onun müavini BMT-nin iş prosesi zamanı üzə çıxan çətinlikləri qiymətləndirmək , bununla bağlı məsələləri cavablandırmaq və işçi heyəti ilə birlikdə əsas vəzifələri yerinə yetirmək istiqamətində intensiv səylər göstərirlər.

- Baş Katib üzv ölkələrə həm Qərargahda , həm də bölmələrdə kadrların işinin müqavilə razılaşmalarına uyğun olaraq davamlı olması üçün təkliflər təqdim edib.

- Baş Assambleya 2007-ci ilin aprelində "yeni, müstəqil, şəffaf, peşəkar formaya salınmış, mərkəzə tabe olmayan və tələblərə cavab verən resurslaşdırılmış daxili ədliyyə sisteminin yaradılması " haqqında prinsipləri müsbət qarşılaşmışdır. Maliyyə mənbəyi də daxil olmaqla yeni sistemin əməliyyat məlumatları 2007-ci ilin dekabrında Baş Assambleya http://www.un.org/News/Press/docs/2007/gaab3795.doc.htm tərəfindən müsbət qarşılanmışdır. Daxili ədliyyə haqqına bu yeni sistem heyətin idarə olunmasına və işsizlik problemlərinin sürətlə , ədalətlə və obyektiv əsaslarla həll edilməsi qərarlarına tənqidi əsaslarla yanaşacaq. Gücləndirilmiş, inteqrasiya etmiş Ombudsman Aparatının http://www.un.org/ombudsman/ və Vasitəçilik Diviziyasının yaradılması Ədliyyə sektorunun müstəqilliyinin təmin edilməsini də qarşısına məqsəd kimi qoyan bu sistemin əsas dayaqları olacaq. Yeni sistemin 2009-cu ilin yanvarında tam olaraq fəaliyyətə başlaması gözlənilir.

## Ümumi məqsədlərə nail olmaq üçün daha çox inteqrasiya etmiş BMT ailəsinin yaradılması

*"Hətta daha çox qarşılıqlı asılı olan dünyada belə səlis və güclü olan BMT qlobal çağırışların nəhəng şəbəkəsi və tələblərin geniş müxtəlifliyi ilə üzləşir. BMT ölkələrin fərqli tələblərini cavablandırmalı və cəhdlərin həyata keçməsini təmin etmək üçün hakimiyyət , idarəçilik və maliyyə təcrübəsində ölkənin səviyyəsini nümayiş etdirməlidir. "*

Baş Katib BMT –nin inkişaf sistemi üçün inteqrasiyanın mahiyyətini "bir-bir çatdırmağa" ehtiyac olduğunu xüsusi olaraq vurğulamışdır. Bu geniş və nəhəng sistemin idarəetmə prosesi və siyasi inkişaf dövründə başa çatdırılması çox mühümdür. BMT sistemi birlikdə daha effektli çalışmalıdır ki, MİM http://www.un.org/millenniumgoals/ də daxil olmaqla ölkələrin daxilində razılaşdırılmış inkişaf məqsədlərinə nail olunsun.

- Geniş Sistem Əlaqələrində Yüksək Səviyyəli Panel http://www.un.org/events/panel/# adlanan mavi zolaqlı məsləhətçilər qrupunun çətin təkliflərini səmimi qəbul edən Baş Katib bu faktı xüsusilə qeyd etmişdir ki, dəyişiklikləri həyata keçirmək üzv ölkələrdən təkcə güclü və müdafiəli təminat deyil , həm də kollektiv rəhbərlik və BMT sistemi olmadan mülkiyyət hüququ tələb edir. Panel məruzəsi http://www.un.org/events/panel/resources/pdfs/HLP-SWC-FinalReport.pdf harmonik və izah edilə bilən , həmçinin üzv ölkələrin nəzarəti altında BMT sisteminin görünüşünü irəli sürür. Panel zəmanət vermişdir ki, harada mümkündürsə BMT-nin nümayəndəlikləri ölkə səviyyəsində birləşdiriləcək və humanitar və ətraf mühitlə bağlı fəaliyyətlərdə rəhbərlik daha da gücləndiriləcək. Daha sonra həm yeni maliyyə sisteminin , həm də gender məsələləri ilə bağlı olan yeni institutsional memarlığın yaradılması təklif olunmuşdur.

- Beləliklə, Baş Katib Geniş Sistem Əlaqələrində Yüksək Səviyyəli Panel vasitəsilə üzv ölkələrlə iş prosesinə başlayıb və BMT sistemi (A/61/836) http://www.un.org/ga/president/62/issues/resolutions/a-61-836.pdf xüsusilə ölkə səviyyəsində inkişaf, humanitar təchizat və ətraf mühitlə bağlı nəhəng genişləndirmələr aparır.
- Səkkiz ölkədə başlayan "Vahid BMT " http://www.undg.org/?P=7 pilot proqramı BMT ailəsinin səmərəli və effektli inkişaf proqramlarının MİM - inhttp://www.un.org/millenniumgoals/ sürətli həllinə nail olmaq üçün nə dərəcədə təsirli və effektli işlədiyini yoxlamağa cəhd edəcək. Əgər BMT-nin inkişaf, humanitar yardım və ətraf mühitlə bağlı əməliyyatları davamlı və təsirli olarsa kasıb və ya dövlətli olmasından asılı olmayaraq hər bir ölkə mənfəət əldə etmiş olar.
- Baş İcraedici Heyət (BİH) http://www.unsystemceb.org/ kimi mövcud koordinasiya quruluşlarının gücləndirilməsi və tam istifadəsi : BİH-in funksiyasının tam nəzərdən keçirilməsi Baş Katibin rəhbərliyi altında BİH-in BMT sistemi olmadan prinsipial koordinasiya mexanizmi kimi gücləndirilməsi məqsədilə öhdəçilik kimi götürülmüşdür. Nəzərdən keçirmə və müzakirəli baxış BİH-in gücləndirilməsi və onun rolunun daha da aydınlaşdırılması ilə nəticələnmişdir və bu proqram və siyasi məsələlərin birlikdə BMT sistemində koordinasiyasına , biznes təcrübəsinin geniş sistemdə harmonikliyinə və ölkə səviyyəsində operativ fəaliyyətlərə koordinasiyalı yanaşmanı təmin edəcək. Təkmilləşdirilmiş BİH geniş sistemli işə daha böyük, effektli və şəffaf yaxınlaşmağa kömək edəcək.

**Biznes təcrübəsinin harmonikliyi:**

- Baş Katibin rəhbərliyi altında BMT-nin icraedici orqanları İdarəetmə üzrə Ali Komissiya tərəfindən təkmilləşdirilmiş ali təşəbbüsləri tam qanuni formada təsdiq etdilər və bu təşəbbüslər BMT sistemində http://hlcm.unsystemceb.org/hlcmdocs/03 biznes və inzibati təcrübə sahəsində islahatlar aparmağı və harmonikliyi təşkil etməyi öhdəçilik kimi öz üzərinə götürür. Gözlənilir ki, effektli biznes təcrübəsi daha substansiv çıxarların bölüşdürülməsində mühüm rol oynayacaq və insan resurslarının başlıca idarəetmə funksiyalarını, İKT-ni, maliyyə və büdcə sahələrini əhatə edəcək.

**BMT-nin iqlim dəyişikliyini müdafiə etməsinin harmonikliyi:**

- İqlim dəyişikliyindən yaranan və beynəlxalq ictimaiyyətə təsir edən çox mühüm problemlərdən xəbərdar olaraq BİH müxtəlif ekspertizaları və üzv ölkələrin tənqidi məsələlərə daha effektiv yanaşmasını təmin etməyi məqsəd kimi qarşısına qoyan BMT sisteminin imkanlarını bir araya toplayır. Baş Katib BMT-nin Malidə keçirilən İqlim Dəyişikliyi Konfransında BİH –in icmalının təqdimatını keçirmişdir. Baş Katib BİH yanaşmasının xülasəsini Balidə keçirilən İqlim Dəyişikliyi Konfransında (dekabr 2007-ci il) http://unfccc.int/meetings/cop_13/items/4049.php təqdim etmişdir.

- Bundan əlavə Baş Assambleyanın 61-ci sessiyasında Baş Katib və onun müavini üzv ölkələrə qadınlara səlahiyyət verilməsi və gender bərabərliyi məsələlərində Təşkilatın imkanlarının yüksəldilməsi üçün BMT-nin gender arxitekturasının necə

gücləndirilməsi istiqamətində fikirlər irəli sürdülər. Bu səylər 62-ci sessiyada da davam etdiriləcək.